**Dövlət Statistika Komitəsi nümayəndəsinin Minilliyin İnkişaf Məqsədlərinin təhsil sahəsində göstəricilərinə dair təşkil edilmiş regional seminarda iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Xidmət statistikası şöbəsinin müdiri Elçin Hacı cari ilin noyabr ayının 21-23-də BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən Minilliyin İnkişaf Məqsədlərinin təhsil sahəsində göstəricilərinə dair təşkil edilmiş regional seminarda iştirak etmişdir. Seminarda YUNESKO-nun Statistika institutunun direktoru Hendrik van der Pol və statistik təhlil üzrə mütəxəssisi, BMT-nin Avropa İqtisadi Komissiyasının statistika şöbəsinin nümayəndəsi, həmçinin Albaniya, Bosniya və Herseqovina, Gürcüstan, Tacikistan və Moldova statistika orqanlarının təhsil statistikası üzrə mütəxəssisləri iştirak etmişlər. Seminar təqdimatlar, müzakirələr və çıxışlar formatında təşkil edilmişdir.

Seminarın əsas məqsədi regional əməkdaşlıq və təcrübə mübadiləsi ilə Minilliyin İnkişaf Məqsədlərinin monitorinqi üçün statistik potensialın möhkəmləndirilməsi olmuşdur. Seminar Minilliyin İnkişaf Məqsədlərinin II və III məqsədi üzrə təhsilə dair göstəricilərin müzakirəsinə yönəldilərək göstəricilərin hesablanması üçün YUNESKO tərəfindən tövsiyə edilən metodologiya, məlumat mənbələrinin müzakirəsi və məlumat əldə edilməsində qarşıya çıxan problemlər, məlumatlarda olan boşluqların, həmçinin göstəricilərin milli və beynəlxalq qiymətləndirilməsində olan fərqlərin azaldılması və aradan qaldırılması, Minilliyin İnkişaf Məqsədlərinin milli monitorinqi üçün məlumatların mövcudluğu, qabaqcıl regional təcrübələrin təqdim edilməsi, milli və regionlararası əlaqələndirmənin və əməkdaşlığın stimullaşdırılması kimi məsələləri əhatə etmişdir.

BMT-nin üzv dövlətləri tərəfindən 2000-ci ildə qəbul edilmiş Minilliyin Bəyannaməsi ölkələrdə olan yoxsulluğun aradan qaldırılmasına və bütün insanlar üçün nurlu gələcəyin təmin olunmasına yönəlmişdir. Bununla dünya dövlətləri üz üzərinə öhdəliklər götürmüşdür. Yoxsulluğun aradan qaldırılmasına yönəlmiş inkişafın ölçülməsi və qiymətləndirilməsini məqsədilə konkret məqsəd və göstəricilərə malik Minilliyin İnkişaf Məqsədləri qəbul edilmişdir.

Minilliyin İnkişaf Məqsədlərinin təhsil sahəsində göstəriciləri xalis qeydiyyat əmsalı, 1-ci sinifdən başlamaqla 5-ci sinfə qədər təhsilini başa vurmuş şagirdlərin xüsusi çəkisi, 15-24 yaşlı əhalinin savadlılıq səviyyəsi, ibtidai təhsildə qızların oğlanlara nisbəti, tam orta təhsildə qızların oğlanlara nisbəti,
ali təhsildə qadınların kişilərə nisbətindən ibarətdir.

Beynəlxalq ekspertlərin təqdimatlarında Minilliyin İnkişaf Məqsədlərinin təhsil sahəsində ayrı-ayrı göstəricilərin hesablanması və qiymətləndirilməsi üçün YUNESKO tərəfindən hazırlanmış metodika izah edilmişdir.

Region ölkələrinin göstəricilərində olan boşluqlar, göstəricilərin milli və beynəlxalq qiymətləndirilməsində olan fərqlər müzakirə edilmişdir.

YUNESKO-nun Statistika institutunun direktoru öz təqdimatında iştirakçı ölkələrdən yalnız Azərbaycanda 2011-ci il üzrə təhsilə dair bütün göstəricilərin tam şəkildə Komitənin rəsmi internet səhifəsində yerləşdirildiyini, həmçinin

YUNESKO-nun sorğularının vaxtında cavablandırıldığını xüsusi qeyd etmiş və buna nail olma yolları haqqında çıxış etməyi nümayəndəmizə təklif etmişdir.

Elçin Hacı öz çıxışımda qeyd etmişdir ki, Dövlət Statistika Komitəsində Keyfiyyətin idarə edilməsi və metaməlumatlar sisteminin, elektron sənəd dövriyyəsinin tətbiqi və hesabatların real vaxt (on-layn) rejimində təqdim olunmasının istehsal olunan statistik məlumatların dürüstlüyünün, vaxtında olmasının və müqayisəliliyinin təmin edilməsinə şərait yaratmışdır. Dövlətstatkomun rəsmi internet səhifəsində yerləşdirilmiş məlumat bazalarının doldurulmasına dair planların və qrafiklərin tərtib edilməsi və onların yerinə yetirilməsinə ciddi nəzarət istifadəçilərin zəruri statistik məlumatlarla vaxtında və maneəsiz təmin edilməsi üçün həyata keçirilən zəruri tədbirlərdəndir. Minilliyin İnkişaf Məqsədlərinin yalnız təhsilə dair deyil, ümumilikdə bütün sahələr üzrə göstəriciləri beynəlxalq təşkilatların metodologiyaları və tövsiyələri əsasında hesablanması iştirakçıların nəzərinə çatdırılmışdır.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" və Proqramın həyata keçirilməsi məqsədilə hazırlanmış Tədbirlər Planı haqqında məlumat verilmişdir. Bildirilmişdir ki, Proqramda yoxsulluğun azaldılması istiqamətində hədəf göstəricilər müəyyən edilmiş, Tədbirlər Planında isə 2015-ci ilədək bu göstəricilərə nail olmaq üçün Dövlət Statistika Komitəsinin də öhdəsinə düşən konkret işlər göstərilmişdir. Tədbirlər Planının "İnsan kapitalının inkişafı və sosial tərəqqi" bölməsi təhsil, ətraf mühitin davamlı idarə olunması, mədəniyyət, gender siyasəti, uşaq və gənclər siyasəti məsələlərini əhatə edir.

Bundan əlavə, beynəlxalq təşkilatların, həmçinin də YUNESKO-nun məlumat bazalarında ölkəmizə dair məlumatların bəzilərində uyğunsuzluqların olması, bu uyğunsuzluqlara görə həmin məlumatlar əsasında müxtəlif indekslərin, xüsusən də İnsan İnkişaf İndeksinin qeyri-dəqiq hesablanmasını və nəticədə BMT-nin müvafiq hesabatında Azərbaycanın dünya ölkələrinin sıralamasında tutduğu yerin reallığa uyğun olmadığı qeyd edilmişdir.

Sonda YUNESKO-nun nümayəndəsi ilə ikitərəfli müzakirələrdə təşkilatın məlumat bazasında 25 və yuxarı yaşlı əhalinin təhsil səviyyəsi haqqında Azərbaycana dair məlumatların rəsmi statistika məlumatlarına uyğunlaşdırıldığı və "Təhsil üzrə ümumdünya hesabatı 2012" məcmuədə nəşr edildiyi bildirilmiş və məcmuə təqdim edilmişdir.